# "Vətənin təhlükəsizliyi məsələsində heç kəsə güzəşt olmamalıdır"

*Qısa arayış: Müsahibimiz yazıçı-publisist Nemət Veysəllidir. O, 21 mart 1941-ci ildə Qarabağda anadan olub. Yuxarı Veysəlli yeddiillik kənd məktəbini qurtarandan sonra Martunidə (indiki Xocavənddə) beynəlmiləl orta məktəbi bitirib. Bir müddət kənddə kolxozçu, sonralar Horadiz pambıqtəmizləmə zavodunda fəhlə işləyib. 1961-1964-cü illərdə keçmiş Sovet ordusu sıralarında xidmət edib. 1971-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Bakı şin zavodunda əvvəlcə fəhlə, sonralar fəhlə yataqxanasında baş tərbiyəçi vəzifəsində çalışıb. Bir müddət Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Xəbərlər" baş redaksiyasında kiçik redaktor, sonralar (1975) "Azərbaycan qadını" jurnalında şöbə müdiri vəzifəsində fəaliyyətini davam etdirib. Uzun müddət Azərbaycan Yazıçılar İttifaqında, "Azərbaycan" və "Ulduz" jurnallarında, "Qobustan" incəsənət toplusunda çalışıb.*

*21 may 1993-cü ildə könüllü olaraq milli ordu sıralarında, "Azərbaycan ordusu" qəzetinin Qarabağ bölgəsi üzrə hərbi müxbir kimi xidmətə başlayıb. Qarabağ müharibəsindən, orada baş verən hadisələrdən, döyüşlərdən, ordumuzun qələbə və məğlubiyyətlərindən hazırladığı materiallara görə ədəbi mükafatlara layiq görülüb. 1999-cu ilin aprelində kapitan hərbi rütbəsində, yaş həddinə görə ordu sıralarından tərxis edilib.*

*2001-2006-cı illərdə "Mədəniyyət" qəzetinin baş redaktoru işləyib. Hal-hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının redaksiya-nəşriyyat şöbəsində redaktor vəzifəsində çalışır.*

*Bu günə qədər Nemət Veysəllinin "Sehrkar səslər, əfsanəvi rənglər", "Sular qovuşan yerdə", "Hər şeydən uca", "Düzlərin ağ işığı", "Evimiz yuxuma girir", "Salamat görməyimə şadam", "Sənsiz keçən günlər", "Bəylər bəy", "Həyat sevən insan", "Şəhərlər, evlər, naxışlar", "Yaş həddinə görə", "Piyadaların döyüşü", "Tikintisi yarımçıq qalmış evlər" kitabları işıq üzü görüb.*

*Qısa tanışlıqdan sonra suallarımızı Nemət Veysəlliyə ünvanladıq:*

**- Müharibələr zamanı qələbə qazanmaq naminə hər bir vətəndaşın üzərinə müəyyən vəzifələr düşür. Sizcə, ölkədə müharibə gedən günlərdə yazıçı və şairlərin, ümumiyyətlə yaradıcı adamların üzərinə hansı vəzifələr düşür?**

- Ümumiyyətlə, mən müharibəyə diplomatik don geyindirməyin qəti əleyhinəyəm. Qarabağ müharibəsinin qızğın vaxtlarında (1988-1993), elə sonralar da vətəndaşlar arasında belə bir fikir dolaşırdı: hərə öz işi ilə məşğul olsa daha yaxşıdır. Başqa sözlə desək, yazıçı kitab yazsın, müəllim dərsini söyləsin, iaşə işçisi pivəsini satsın. Bu qəbil fikirlərin, düşüncə tərzinin içində, necə deyərlər, klassik biclik, diplomatik oyunlar var. Bu tapmacanın, kodun açması odur ki, qoy yalnız əyninə hərbi forma geyənlər döyüşsünlər. Qarabağda, Murovda soyuq səngərlərdə çürüsünlər, həlak olsunlar, yaralansınlar. Əgər Balaxanımın, Nənəxanımın əkiz oğlunun biri şəhid olubsa, qoy o birisi də getsin, şəhid olsun. Amma, qoyun mən Gəncədəmi, Naxçıvandamı, Bakıdamı müəllimliyimi edim, yavaş-yavaş alış-verişlə məşğul olum. Qoy əyninə hərbi forma geyənlər vətəni işğalçılardan azad etsinlər, amma mənim diplomat, tələbə oğlum döyüşlərdə iştirak etməsin. Müharibə zamanı (1992-1995) gülməşəkər övladlarını hərbi çağırışlardan yayındıran valideynlərin min cür üzünü, fəndgirliyini görmüşəm: min bir fitnə-fəsadla övladlarını Rusiyaya, Türkiyəyə, Avropa ölkələrinə göndərirdilər. Hətta, oğlunu, qardaşını, qaynını hərbi çağırışdan yayındırmaq üçün övladlarının doğum şəhadətnaməsini dəyişdirir, oğlanlarına qız adı qoyanlar da vardı. Belə faktlara dəfələrlə rast gəlmişəm. Kaş əlimdə fövqəladə səlahiyyətlər olaydı: rəhbər dövlət qulluğuna, mükafatlara, fəxri adlara və sair pillələrə təqdim edilən Azərbaycan vətəndaşlarına bu suallarla müraciət edəydim.

**- 1988-1994-cü illərdə harada, nə işlə məşğul olmusan? Oğlun, qardaşın Qarabağ müharibəsində iştirak edibmi, etməyibsə səbəbi?**

Açığı, əsaslı səbəb olmadan vəzifəyə, yüksək dövlət mükafatlarına, təqaüdlərə təqdim edilən şəxslər əgər bu suallara müsbət cavab verə bilmirlərsə, mən onların təyinatını dayandırardım. Məncə vətən, vətənin təhlükəsizliyi məsələsində heç kəsə güzəşt olmamalıdır. Əgər biz 1988-1994-cü illərdə yerlibazlıq, tayfabazlıq, hakimiyyət uğrunda mənasız yerə yarışa girməsəydik, indiki alçaldıcı, təhqiredici vəziyyətə də düşməzdik.

**- Siz tanınmış yazıçı-publisist kimi Qarabağ müharibəsi başlananda yaşınızın o çağında qələmi silaha çevirdiniz. Deyəsən, yaşınıza görə sizi xidmətə çağırmaq istəmirmişlər. Bu necə baş verdi?**

- Həyatımda fərəhli, qəhqəhəli günlərlə yanaşı, sarsıdıcı anlarım da az olmayıb. Anamın avtomobil qəzasında faciəli surətdə həlak olması, kəndimizin erməni silahlı qüvvələri tərəfindən işğalı. Məsələ burasındadır ki, mənim doğulduğum Yuxarı Veysəlli kəndi hər tərəfdən erməni yaşayış məskənləri ilə əhatə olunub. Çartaz, Martuni rayonu, Sos və İsfahan (vaxtı ilə bu erməni kəndlərinin əhalisinin hamısı İrandan, Türkiyədən Qarabağa köçürülüblər) kəndləri bizim torpaqlara bitişikdi. Ötən əsrin 1929-1930-cu illərində Füzuli rayonunun bir neçə kəndi - Yuxarı Veysəlli, Yuxarı Divananlar, Cəmilli yaşayış məskənləri ərazi-inzibati bölgüsü zamanı, Füzuli rayonunun bütün strukturlarda təsdiq edilmiş ərazisindən qopmuş, sabiq DQMV-nin ərazisinə düşüb. Bu kəndlər bütün bəndlər üzrə rəsmən Füzuli rayonuna tabe olsalar da, DQMV-nin əhatəsinə düşüb. Bu proses çox uzun və ağrıdıcı sönbətdi. Bir sözlə, milliyyətcə rus yerölçənləri hələ 1929-1930-cu illərdə indiki münaqişənin əsasını qoyublar.

Münaqişənin ilk günlərindən, 1988-ci ilin fevralından 117 evlik, 700 nəfər əhalisi olan kəndimiz yollarda daş davası, girov və faciələrlə üz-üzə qaldı. Martuni, Çartazın, Qarakəndin azğınlaşmış millətçiləri veysəllilərə ziyanlıq verir, yol gedibgələn camaatı təhqir edirdilər. Özünə vurğunluq çıxmasın, ətrafın erməni əhalisi, çoxyaşlı ermənilər bizim kənd camaatının qeyrətinə, cəngavərliklərinə yaxşı bələddirlər. Bu münaqişənin əzəli hələ 1905-1918-ci illərdə qoyulmuşdu. Ermənilər Ələsgərli tayfasının, Ağalar və Soltanalı bəyin, Məmmədqulu kişinin və Aslan yüzbaşının igidliklərini hələ də unutmamışdılar. Əslində, dağların o üzündə qalan, narahat bir camaatı unutmaq kişilikdən deyildi. Narahat və səksəkə içində olan təkcə elə Yuxarı Veysəlli camaatı idimi? O günlərdə bütün Qarabağ çalxalanırdı. Azərbaycan ağır günlərini yaşayırdı.

Ordu sıralarına könüllü yazılmaq üçün əvvəlcə Binəqədi rayon hərbi komissarlığına müraciət etdim. Orada mənə dedilər ki, biz sən yaşda adamı (o zaman mənim 52 yaşım vardı) cəbhəyə göndərə bilmərik, ixtiyarımız yoxdu.

Sonralar Respublika hərbi komissarlığına müraciət etdim. Dosttanış mənə həmrəylik etdilər. 1993-cü ildə Ali Sovetdə çalışan vəzifəli dostumun sayəsində ordu sıralarına qəbul edildim. Nəsiman Yaqublunun Allah ölənlərinə rəhmət eləsin, o da məni redaktor olduğu "Azərbaycan ordusu" qəzetinə bölgə müxbiri təyin etdi və dərhal da cəbhəyə göndərdi.

**- Beləliklə, istəyinizə çatdınız, hərbi forma geyinib döyüş meydanlarına atıldınız. Qarabağ müharibəsində ilk dəfə güllə səslərini harada eşitdiniz?**

- Mən ordu sıralarına yazılandan da qabaq tez-tez təhlükəli yerlərə gedirdim. Hətta, 1992-ci il, fevralın 26-da Füzulidə, Uryan deyilən dağda mühasirəyə də düşmüşəm. Əslən Gəncədən olan, xüsusi təyinatlı polisin sayıqlığı və igidliyi sayəsində faciədən sovuşduq. Mən sonralar (1994, 11 yanvar) Aşağı Əbdürrəhmanlı (Füzuli) kəndinin ayağında, qəbiristanlıq tərəfdə də mühasirəyə düşmüşəm. Heyf deyil döyüş, sən atırsan, düşmənin gülləsinin səsi qulağın dibində viyıldayır. Son dərəcə gərgin məqamda olan bir şəxs döyüşçü kimi özünü, fikirlərini cəmləşdirirsən. Sonrakı saniyələrdə nə edəcəyin haqda düşünürsən. Atəşi, döyüşü necə aparmağın yollarını axtarırsan. Döyüşən əsgər, zabit, material hazırlayarkən gərgin dəqiqələr yaşayan hərbi müxbir üçün mühasirəyə düşməkdən də axmaq bir şey yoxdur. Mühasirəyə düşən zaman adamın ağlına min cür qara-qura fikirlər gəlir. Mühasirəyə düşdüm, uzaq olsun, əsir götürüldüm, bəs sonra, adamı başına hava gəlir, sonrakı taleyim necə olacaq? Ailəm, övladlarım? Allah heç bir Azərbaycan hərbiçisinə, əsgərinə, zabitinə belə bir xoşagəlməz tale qismət eləməsin. Erməni cəmiyyəti, hərbi strukturları azərbaycanlı əsirlərlə, Almaniyalı, Amerikalı, İspaniyalılar kimi rəftar etmirlər ha. Ermənilər dünyada hərbi əsirlərlə bağlı aktların heç birinə məhəl qoymur, hərbi əsirlərlə varvarlar kimi rəftar edirlər. Erməni xisləti, cılızlığı, təkəbbürü hərbi əsirlərə münasibətdə də özünü göstərir. Allah hərbi operator, Qarabağ müharibəsi zamanı qəhrəmanlıqlar və igidliklər göstərmiş Seyidağanın ölənlərinə rəhmət eləsin, biz onun fəndgirliyi, cəsarəti sayəsindən əsir düşmək təhlükəsindən sovuşduq. Maraqlıdı, bu igid, o illərin canlı əfsanəsi olan hərbi operator, görəsən indi haradadı? Dolanışığı, şəraiti necədi? İndiki nəsillər onun adını eşidiblərmi, Qarabağ müharibəsinin ilk günlərindən çiynində kamera, əlində avtomat daşıyan insanı yad edirlərmi?



İndi Azərbaycanda ufurulub-ufurulub qəhrəman donuna çevrilmiş adamlar, mal-mülk sahibləri - belə adamlar firavan yaşayışlarına görə ilk növbədə Seyidağa Mövsümova, Etibara (hərbi operator), Yavər İsgəndərov, Ramiz Qənbərov kimi igidlərə borcludular.

**- Müharibə bütün rahatlığınızı pozub, dinc günlərinizə gərginlik qatdı. Ağ günlərin rəngi qırmızıya döndü.**

**- Təsəvvür edin ki, mən üç aylıq olanda atam Bayramalını (1941, iyun) davaya apardılar. Atam 1942-ci ildə, Səməd dayım isə 1944-cü ildə Polşada həlak olub. Sonralar, çox-çox sonralar anam şər qarışanda evin bir küncünə çəkilib həyat yoldaşını, qardaşını xatırlayırdı və hıçqır-hıçqır ağlayırdı. Onların qərib, nisgilli ruhları həmişə evimizdə dolaşırdı. Demək istədiyim odur ki, Qarabağ müharibəsi başlamazdan da qabaq mən müharibənin ağrı-acısını, rəngini hiss etmişdim. Amma, nə isə bu ağrılar, olaylar çoxdan olmuşdu, təkrar edirəm o ağrıları, acıları fiziki və mənəvi cəhətdən o qədər də kəskin hiss etmirdim. İçimin lap dərinliklərində olan ağrılar, qabarlar bir növ öləzimişdi. Amma, 1988-1994-cü illərdə Qarabağda, Şuşada, Kərgicahanda gördüklərim, ermənilərin bizim xalqın başına gətirdiklərini - bu faciələri çılpaqcasına, panoram şəkildə görəndə - sarsıldım, necə deyərlər, daha mən əvvəlki, dinc günlərin Nemət Veysəllisi deyildim. Sözün birbaşa mənasında cəbhəboyu gördüklərimdən sonra qanım, hiss və duyğularım qatılaşmışdı, sərtləşmişdim, qəddarlaşmışdım. Təəssüf ki, ermənilər uşaqlıq və yeniyetməlik çağlarımdan güc-bəla ilə içimdə qoruyub-saxladığım insani, bəşəri duyğularımı alt-üst etdilər. İnsanın belə bir məşəqqətli psixoloji mərhələləri keçəndən sonra necə yaşayacağını təsəvvürünüzə gətirirsinizmi?**

Məsələyə başqa bucaq altından da yanaşmaq olar: erməni silahlı birləşmələri mənim doğulduğum Yuxarı Veysəlli kəndini, eninə-boyuna dolaşdığım Qarabağı, Naxçıvanın və Qazaxın sərhəd kəndlərini yandırıblar, məhv ediblər. Onlar heç nəyi gizlətmədən qarşılarına məqsəd qoyublar: Azərbaycan xalqını, dövlətini məhv etmək. Belə olan halda sıravi azərbaycanlı, Azərbaycan vətəndaşı nə etməlidir? Əgər erməni anaları, ağsaqqalları hesab edirlər ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti işğal altında qalan torpaqları azad edərkən onlara atəş açmayacaqlar, uşaq və yeniyetmələrə rəhm edəcək - insan çox çətin seçim qarşısında qalır.

**- Erməni işğalçıları sizin doğma kəndiniz olan Yuxarı Veysəllini də elə keçirib odlara qaladılar. Deyəsən, o ərəfədə dədə-baba ocağında ev tikmək istəyirdiniz. O gərgin günlər yaddaşınızda necə qalıb?**

- Bu mövzu ilə bağlı ürəyimin künc-bucağında çoxlu yaralar, ağrılar var. Onlardan biri də Yuxarı Veysəllidə, ata yurdunda fərdi ev tikmək arzusu idi. Ev tikmək, yurd salmaq üçün bütün (1992) tədarükləri görmüşdüm: Ağdam tikinti materialları kombinatından və Füzuli rayon daş karxanasından üst-üstə yeddi minə yaxın mişar daşı almışdım. Yuxarı Veysəlliyə Füzulidən, Füzuli rayon mərkəzindən nəhəng buldozer gətirtmişdim, dağların sinəsində, axar-baxarlı yerdə tikdirəcəyim ev üçün bünövrə yeri də açdırmışdım. Bünövrənin esgizindən, layihədən bilinirdi ki, tikəcəyim mülk yaraşıqlı və rahat olacaqdı. Çınqıl, qum da öz yerində. Ağdamdan, Füzulidən gətirilən mişar daşları dağ döşünə o qədər səliqə-sahmanla qalanmışdı ki, yollardan ötüb-keçənlər bu mənzərəyə heyran-heyran baxırdılar. Kənd ağsaqqalları deyirdilər: "Allah xeyir versin, yaxşı yer seçmisən". Sonralar kənd işğal edildi, təbii ki, ata yurdunda ev tikmək arzum da ürəyimdə qaldı.

Hərdən düşünürəm, bir övlad ki, ata-anasının yurdunda özünə ev tikdirə, onu abad edə bilmirsə, belə övlad kimə lazımdı? Bu faciədi. Maraqlıdı, ata-anasının yurdunda özünə ev tikdirə, nəvə-nəticə böyüdə bilməyən övladlar sonralar necə sevib, qəhqəhə çəksinlər? Azərbaycanlıların, Azərbaycan vətəndaşlarının ermənilərə, işğalçılara qarşı humanist hissləri çoxdan, lap çoxdan daşlaşıb, donub.

**- Cəbhə xəttində olduğunuz günlərin sayı-hesabı yoxdu. Yəqin ki, Azərbaycan əsgərinin qəhrəmanlığını, igidliyini çox görmüsünüz.**

- Rəhmətlik general-mayor Arif Salahov deyirdi ki, Azərbaycan əsgəri vətənin güllüdü. Mən Azərbaycan əsgərinin igidliyini, dözümünü bütün cəbhə boyu, döyüş gedən yerlərdə dəfələrlə görmüşəm. Füzulidə, "Yaşıl tala" deyilən yerdə (1994-cü il, yanvar), Aşağı Əbdürrəhmanlıda, Murovda, Zəli göldə və həmişə də Azərbaycan əsgərinin dözümünə, ən çətin məqamda belə vəziyyətdən çıxış yolu axtarıb tapdığına heyran qalmışam. Ayaqlarında idmançı çustu, əyin-başı nimdaş əsgərin şir ürəyini, vətənə hədsiz məhəbbətini görmüşəm. Adamı ağrıdan odur ki, belə igid, dözümlü və cəngavər əsgərlərin torpaqlarının böyük bir hissəsi hələ də işğal altındadır. Ədalət qanunlarına görə gərək Azərbaycan əsgəri belə bir naqolay vəziyyətə düşməyəydi: o, daha böyük, fəxredici qələbələrə layiq idi.

**- Müharibə mövzusu yaradıcılığınızdan qırmızı xətlə keçir. Hazırda nə üzərində işləyirsiniz?**

- Ümumiyyətlə, Qarabağ hadisələrindən, gözümlə gördüyüm, döyüş bölgələrində fəaliyyət göstərən hərbi müxbir kimi (1993-1999) şəxsən iştirak etdiyim döyüşlərdən, hadisələrdən iri həcmli, bədii və peşəkarlıq baxımından həssas oxuculara layiq ola bilən "Mənim müharibəm" adlı bədii, memar janrına yaxın əsər yazmaq istəyirdim. Hətta, bu haqda uzun illər düşünmüşdüm də. Əlyazmanın formasını, hadisələrin necə inkişaf edəcəyini, "döngə", "yeniş" və "yoxuşları", bənd və bölmələr haqda da fikirləşmişdim. Təəssüf ki, yazı zamanı, yazı prosesində əvvəlcədən düşündüklərimi həyata keçirə bilmədim. Müharibə zamanı keçirdiyim hiss və duyğularımı, sarsıntılarını soyuq ağılla ifadə edə bilmədim. Xüsusilə də 88-ci ildən üzü bəri gördüklərim, o səhnələrin ağırlığı, dözülməsi mümkün olmayan səhnələr, döyüşlər, xalqımızın başına gətirilənlər, faciələr - bütün bunlar yazı zamanı məni çaşdırıb karıxdırırdı - fikirlərimi bir sapın üstünə düzə bilmirdim, duyğularım və düşüncələrim basdırığa düşürdü - nəticədə yazdıqlarım bədii effektini itirdi. "Mənim müharibəm" köhnə və zəhmətkeş dostum Əbülfət Mədətoğlunun köməkliyi sayəsində "Ədalət" qəzetində (dörd çap həftəsində) dərc ediləndən sonra dosttanışlarımdan, müharibə iştirakçılarından ünvanıma xoş sözlər də eşitdim. Amma ürəyimin lap dərinliklərində hiss edirdim ki, istədiyimə nail ola bilməmişəm.

Hamı tərəfindən qəbul edilməyəcək bir fikrə də toxunmaq istəyirəm: Ümumiyyətlə, əslən Qarabağdan olan yaradıcı şəxsin, o cür müsibətlərin içindən keçən bir insanın oxucuları heyrətləndirə biləcək yüksək səviyyəli əsər ortalığa qoyacağına da düzü inanmıram. Mənim kimi, mən tərcümeyi-halda olan adamların artıq içi-içalatı çoxdan yanıb, külə dönüb.

**- Azərbaycan əsgərinə sözünüz, arzunuz...**

- Can sağlığı və azad edilmiş torpaqlarımızın Əlahəzrət sevincini arzulayıram əsgərlərə.

**Söhbəti yazdı:**
**Vahid MƏHƏRRƏMOV**